

Kamil ƏFSƏROĞLU

# Onu bağışlamaq olar...

Kino sənətindən söz düşəndə, nədənsə ilk növbədə uşaq vaxtı baxdığım filmləri xatırlayıram. O filmlərdəki hadisələr, qəhrəmanlar, mənfili-müsbətli personajlar xəyalımda canlanır. Əlbəttə, bu duyğu yalnız nostalji hisslərdən yaranmır. İnamla demək olar ki, o dövrdə çəkilən filmlərin böyük əksəriyyəti uğurlu ekran həyatı yaşaya bilmiş və bu gün də yaşamaqdadır. Məhz bunun nəticəsidir ki, əlli-altmışıncı illərin filmləri indinin özündə də maraqla baxılır, müasir tamaşaçının da zövqünə cavab verir.

Əllinci illər kinosunun sənət dünyamıza bəxş elədiyi maraqlı ekran əsərlərindən biri də rejissor Rza Təhmasibin Məmmədhüseyn Təhmasibin ssenarisi əsasında çəkdiyi “Onu bağışlamaq olarmı?” filmidir.

Film 1959-cu ildə ekranlara çıxdı və qısa müddətdə populyarlıq qazandı, ən çox baxılan filmlər sırasında yer tutdu. Tamaşaçı ekranda həyatın görünməyən, kölgədə qalan tərəflərini gördü, asayişin keşiyində dayanan fədakar milis əməkdaşlarının çətin, şərəfli işinin şahidi oldu. Müharibədən çıxmış ölkədə cinayətkar ünsürlərin ayaq açdığı bir vaxtda bu cür filmlərin ictimai təsiri özünü göstərir, insanların mənəvi dünyasının, əxlaqının formalaşmasında, gənclərin tərbiyəsində böyük önəm kəsb eləyirdi.

Müharibə geridə qalmışdı, amma onun fəsadları hələ də özünü büruzə verməkdəydi. Müharibə özündən sonra ağrılı-acılı izlər buraxmış, dağıdılmış şəhərləri, kəndləri, bir də cinayətə qurşanmış adamları miras qoymuşdu. Bu adamların çoxu dava vaxtı valideynlərini itirmiş, kimsəsiz qalmış, kimsəsiz böyümüş uşaqlar idi – müharibə dövrünün uşaqları.

“Onu bağışlamaq olarmı?” filmi bizim uşaq dünyamızda ildırım təki şaxıdı, şimşək təki çaxdı. Baxmaqla doymur, bir seansdan çıxıb o birinə girirdik. Oğlanlar özlərini ekrandakı qəhrəmanlara bənzətməyə çalışırdlar. Qızların da öz sevdikləri personajlar vardı, aralarında filmdəki doktor Kəmalə xanım kimi göz həkimi olmaq sevdasına düşənlər də az deyildi. Təkcə bizim sinifdən üç qızın – Şövkət, Tünzalə və Leylanın həkimlik peşəsini seçməsində, heç şübhəsiz, o filmin təsiri olmuşdu. Oğlanlardan bəziləri isə fikrini dəyişib milis zabiti olmaq eşqinə düşmüşdü. Çox qəribədi ki, Tərlan cinayətkar olsa da, aramızda ona bənzəmək istəyənlər də vardı. Biz uşaqlar onun taleyinə acıyır, müharibə başlar-başlamaz valideynlərini, bacısını itirən bir uşağın cinayət yoluna düşməsinin səbəbini Tərlanda yox, şəraitin özündə, onu bu işə təhrik edən peşəkar oğru, quldur primusdüzəldən kişidə görürdük. Bu hisslər yazıb-yaratmaq eşqilə yaşayan gənc bəstəkar Sevdaya, doktor Kəmalə xanıma əl qaldırmış Tərlana olan kin və nifrəti hardasa yumşaldırdı və özümüz də anlamadan nədənsə, hansı səbəbdənsə onu bağışlamaq istəyirdik.

Film bizim uşaq dünyamıza yeni qəhrəmanlar bəxş eləmişdi, o qəhrəmanlar ki, ekranda ilk dəfəydi görürdük və özümüzü o qəhrəmanların



yerində hiss edir, onların yerişini yeriməyə çalışırdıq. Bizim sinifdə ən çox Seyran oxşayırdı Tərlana, telini Tərlansayaq darayır, Tərlansayaq geyinib-keçinirdi, hətta qaratikanla yanağını cızmışdı ki, filmin qəhrəmanı kimi, onun da üzündə çapıq olsun. Bu, Seyranı Tərlana daha çox bənzədirdi və aramızda ona həsəd aparanlar da vardı.

Bir yol sinif rəhbəri Oruc müəllim oğlanları lövhə önünə çağırdı. Dedi ki, ciblərinizi çevirin. Hamının cibindən qurğuşundan düzəldilmiş oyuncaq beşbarmaq çıxdı. Oruc müəllim bizi tənbeh elədi, danlayıb dedi ki, filmlərdən yaxşı mənada ibrət götürmək gərəkdi, pis mənada yox. “Onu bağışlamaq olarmı?” bir gəncin düşdüyü çirkin mühiti pisləyir, onun iztirablı həyatını canlandırır, siz baxıb nəticə çıxarmaq yerinə, hərəniz bir beşbarmaq düzəldib qoymusunuz cibinizə. Bu nə deməkdi, o kinonu bundan ötrümü çəkiblər? Sizin belə hərəkətiniz pioner adına ləkə gətirir… Bu sözləri söyləyəndə Namiqin qarşısında dayanıb, mənalı-mənalı başını buladı. Namiqin atası Süleyman dayı milis kapitanı idi. Bu üzdən də hamıdan çox xəcalət çəkirdi, yer yarılsaydı, yerə girərdi. Başımızı sallayıb durmuşduq. Sinif rəhbərinin tənbehi ağır idi, necə deyərlər, bir batman balla yeyilməzdi. Hətta mənə elə gəlirdi ki, o tənbeh eləmir, dünyanın ən adil hakimi kimi bizi ittiham edir. Belə baxanda, bizim bu uşaq həvəsimiz pisniyyətlikdən deyildi, oyuncaq beşbarmaqla cinayətə qarşı çıxmaq, filmdəki Sevdaları, Kəmalələri cinayətkarlardan qorumaq istəyindən irəli gəlirdi. Hər birimizin ürəyindən qəhrəman olmaq arzusu keçirdi. Biz Tərlana oxşamaqla əslində tərlanlara qarşı çıxmaq istəyirdik və əlbət, bunu yaxşı bilən tərcübəli pedaqoq Oruc müəllim beşbarmaq söz-söhbətini şişirtmədi. O hadisə bu günəcən xatirəmdən silinmir. Onda ağlıma belə gəlməzdi ki, uzun illər keçəcək, yazıçılıq fəaliyyətim məni bu mövzuya toxunmağa vadar edəcək və mən qələmə aldığım bir hekayədə o filmlə bağlı epizoda, beşbarmaq söz-söhbətinə qayıdacağam.

“…Kürsülü yeri təsadüfi seçməmişdi, həmişə burda – şumal gilas ağacının altında otururdu.

Düşüncələrə dalıb mahnını axıradək səssiz-səmirsiz dinlədi. Əliylə müğənniyə işarə edib onu çağırdı.

– Qədeş, kinodan oxuyursan o mahnını? – soruşdu.

– Hə, filmnəndi – “Onu bağışlamaq olarmı?”.

– Bağışlamaq olmaz! Nöşün ki, o kinonu düz çəkmiyiblər…

– Niyə ki? – oğlan təəccübləndi.

Kişi bu sualı gözləyirdi, əlüstü cavabını verdi:

– Bilginən, Tərlan primusdüzəldəni jiznində satmazdı. O kinonu elənçiyinə çəkiblər ki, sovet milisini millətin gözündə qaldırsınlar. Başlarınnan böyük də yazırdılar: “Mənim milisim məni qoruyur”. Elənçik dögüldü axı. Baxırdı adamına: sənin milisin səni qoruyurdu, mənim milisim isə məni qovluyurdu... Bu çağeycən heç kim bilmir ki, Tərlan kinodakı o bədbəxt qızı kubinkalı Xudamın beşbarmağıynan vurub. Həri... Xudam da «levşa» idi. O vaxtlar srokunu çəkib təzə qeyitmişdi. “Araz”da kinoya baxanda beşbarmağını sekunda tanımışdı. Sən deməginən, MVD-nin muzeyinnən əmanət götürüblərmiş. Çəkilişdən sonra bronirovanın maşında aparıb qeytəriblər… Xudam odlanırdı, deyirdi ki, Tərlan biqeyrətlik eliyib. Mən o beşbarmağı bir kərəm də olsun zənən xeylağına qaldırmamışam...

Müğənni oğlanı maraq boğurdu, hövsələsini basmadı:

– Xudam sağdı? – soruşdu.

– On il olar, rəhmətə gedib. Poluxinlə Sedmoy paralelninin tinində moped vurmuşdu. Qohum-qərdeş qorotdelə pul verib belə oformut elədilər ki, guya elektriçka bastalayıb. Yaxçı dögüldü də, elənçik vesli cayılı moped vurub öldürüb...”

“Onu bağışlamaq olarmı?” biz uşaqlardan ötrü adi film deyildi, əsl məktəb idi. Təyyarəçi, dənizçi, mühəndis olmaq istəyən tay-tuşlarımdan bəziləri fikrindən daşınıb, meyil salmışdılar asayişin keşiyində dayanmaq işinə. Onlardan çoxunun uşaqlıq arzusu gerçəkləşdi. Aydın, Vaqif, Faiq, Vahid, Cəbrayıl, Qəhrəman, Kamil Daxili İşlər orqanlarında çalışdılar. Bu milis zabitlərinin taleyinə gizli cəbhədəki cinayətkar ünsürlərə

qarşı mübarizə aparmaqla yanaşı, həm də Qarabağda baş qaldırmış erməni separatizminə sinə gərmək, səngərdə erməni işğalçılarıyla vuruşub döyüşmək nəsib oldu. Jurnalist kimi cəbhə bölgələrində olanda uşaqlıq dostlarımla rastlaşdım, yaman dəyişmişdilər, sərtləşmiş, mətinləşmişdilər.

Doxsan ikinci ilin payızı idi. Yaponiyanın NHK televiziyasının əməkdaşı Deqavanı Bakıya dəvət eləmişdik. Onu cəbhə bölgəsində yerləşən Cəbrayıla da apardım. Gərgin vaxtlar idi, elə gecə olmurdu, rayon mərkəzi atəşə tutulmasın. Səfərimizin təhlükəli olduğunu hələ Bakıda ikən yaponiyalı həmkarıma bildirsəm də, o, mənim xəbərdarlığıma çox soyuqqanlı yanaşmışdı. Çünki dünyanın ölümsaçan odlu-alovlu bölgələrində çox olmuşdu, işi belə idi.

Rayonun mərkəzi küçəsindəki Çinar kəhrizin üstündə uşaqlıq dostlarımla şəkil çəkdirdik. Deqavaya dedim, gördüyünüz bu milis zabitlərini Daxili İşlər orqanlarına gətirən kino oldu – "Onu bağışlamaq olarmı?" filmi. Qonaq dedi ki, kinonun təsiri həmişə güclü olub, mənim də uşaqlıq dostlarım arasında Tokioda polisdə işləyənlər var.

Bir il sonra Deqavayla Tehranda görüşdük. Yaxın Şərq ölkələri üzrə NHK-in müxbiri işləyirdi. Dedi, Cəbrayıldan hazırladığı proqram maraqlı alınıb. Gəzib gördüyü o yerlərin işğal olunmasına çox təəssüfləndi. Rayonda tanış olduğu, milisdə işləyən uşaqlıq dostlarımı soruşdu. Bir də filmin adını yadına salmağa çalışdı. "Onu bağışlamaq olarmı?", – deyib xatırlatdım...

Qarabağ uğrunda döyüşlərdən birində milis kapitanı Kamil həlak oldu. Kamilin ölümündən sonra həyat yoldaşı onun yolunu davam etdirmək üçün milis orqanlarında işə girdi…

İnsanın cəmiyyətdə öz yerini tapmasında, yetişməkdə olan gənc nəslin tərbiyəsində kinonun rolu danılmazdır. Televiziyanın yenicə təşəkkül tapmaqda olduğu bir dövrdə bu vacib missiyanı kino öz üzərinə götürmüşdü. Bu baxımdan, hər bir film sadəcə əyləncə kimi deyil, insanların dünyagörüşünə, əxlaqına təsir göstərən, onları formalaşdıran dərin mənalı ekran əsəri kimi çəkilirdi. Bu üzdən də kinonun ictimai şüura, düşüncəyə təsiri əvəzsiz idi.

Orta məktəbdə oxuyanda, yay tətilində Bakıya gəlmişdim. Küçədə gəzəndə gözüm dörd olurdu, qarışqa kimi qaynaşan adamların arasında "Onu bağışlamaq olarmı?" filminin qəhrəmanlarını axtarırdım. Onların həyatda varlığına inanırdım. "Pobeda" maşını görəndə ayaq saxlayıb baxırdım, elə bilirdim, sükan arxasında Tərlanı görəcəyəm. Primusdüzəldən canidən zəhləm getsə də, onu da həyatda görmək istəyirdim. Milis polkovniki Qurbanov, mayor Qaya, leytenant Qarayeva, kapitan Qüdrət... Elə bilirdim ki, bu personajlar təkcə ekranda deyillər, həm də həyatdadırlar. Qəribədir ki, sonradan tələbəlik illərindən başlayan Bakı həyatım, jurnalistlik peşəm 70-ci illərdə məni bu personajların həyatdakı prototipləriylə qarşılaşdırdı. Qaya, yoxsa Daxili İşlər Nazirliyində çalışan milis mayoru Şamil Nəcəfovdu, milis mayoru Mənsur Həsənovdu, bəlkə də, mayor Əhəd, mayor Süleyman Süleymanov qardaşlarıdı? Səmərəli və fədakar əməyinə görə dəfələrlə mükafatlandırılmış milis müstəntiqi Azadə Axundovadı, bəlkə, filmdəki leytenant Qarayeva? Onların hər birinin gərgin işi, səyi nəticəsində neçə-neçə cinayətin üstü açılmış, qarşısı alınmışdı. Müxtəlif taleli bu insanları milis sıralarına bir amal, bir istək gətirib – yolunu azanlara, cinayətkarlara qarşı mübarizə aparmaq. Azadə Axundova orta məktəbdə oxuyanda həkim olmaq arzusundaydı. Amma atası cinayətin qurbanı olduqdan sonra gənc qız fikrini dəyişir. Universitetin hüquq fakültəsini bitirib, Daxili İşlər orqanlarında çalışır. "Onu bağışlamaq olarmı?" filmi ekranlara çıxanda Azadə xanım milis leytenantı rütbəsindəydi. Deyir ki, o vədə milis orqanlarında işləyən qızlar, qadınlar az idi. Milis işçilərinin işindən, fəaliyyətindən, demək olar ki, film çəkilməmişdi, "Onu bağışlamaq olarmı?" bu mövzuda çəkilmiş ilk bədii ekran əsəriydi. Azadə xanım xatırlayır: "O filmə ilk dəfə "Nizami" kinoteatrında iş yoldaşlarımla – rəfiqələrimlə baxmışam. Mülki geyimdəydik. Yanımızdakı ta-



maşaçıların necə həyəcan keçirdiklərini görürdüm. Bilmirdilər ki, onlarla birlikdə oturub filmi seyr edənlər arasında milis paqonu daşıyan gənc qızlar da var və bu qızlar cinayətkarlarla ekranda deyil, həyatda qarşılaşırlar...” Azadə xanım xatırlayır ki, film ekranlara çıxar-çıxmaz onun musiqisi, mahnıları dillərdən düşmədi. Hara gedirdinsə, orda – parklarda, konsertlərdə, restoranlarda “Onu bağışlamaq olarmı?”dakı mahnılar səslənirdi...

Bəli, heç şübhəsiz, filmin bir uğuru da onun musiqisiydi – Tofiq Quliyevin bəstələdiyi musiqi. O musiqi ki, bu gün də dillərdən düşmür.

Filmdə leytenant Qarayeva rolunu əməkdar artist Ətayə Əliyeva oynayır. Bu rol epizodik olsa da, yaddaqalandı. Leytenant Qarayeva Daxili İşlər orqanında çalışan, öz həyatlarını çox çətin, amma şərəfli bir işə həsr eləmiş fədakar Azərbaycan qızlarının-qadınlarının ümumiləşdirilmiş obrazıdır. Təbii oyunu, səmimiliyi ilə seçilən istedadlı aktrisa Ətayə Əliyeva bu obrazı sevmiş və tamaşaçılara da sevdirə bilmişdi.

Kino sinkretik sənətdir. Əgər rəsm əsəri rəssamın fərdi məhsuludursa, bədii əsər yazıçının qələminin bəhrəsidirsə, film onlarla, yüzlərlə insanın birgə əməyinin, zəhmətinin barı-bəhəridir. Amma hər halda, filmin uğuru, hər şeydən əvvəl, ssenaridən, rejissor ustalığından, aktyor oyunundan, operator işindən və bəstəkar bəstəsindən asılıdır. “Onu bağışlamaq olarmı?” Rza Təhmasibin kinorejissor kimi ilk müstəqil işi olsa da, uğurlu alınmışdı. Onun teatr və kino sahəsindəki təcrübəsi öz bəhrəsini verməyə bilməzdi. Filmdə operator işi də xüsusi qeyd olunmalıdır. “Onu bağışlamaq olarmı?” quruluşçu operator Teyyub Axundovun kino yaradıcılığında daha bir uğurlu addım oldu.

Filmdə istedadlı aktyor heyətilə rastlaşırıq. Rza Təhmasib filmə korifey aktyorları dəvət eləmişdi: Hökümə Qurbanova, Mehdi Məmmədov, Məmmədrza Şeyxzamanov, Ətayə Əliyeva, Həsənağa Salayev… Aktyorlardan söz düşmüşkən, deyim ki, filmdə başqa respublikalardan artistlər də çəkilib. Baş qəhrəman Tərlan roluna erməni aktyoru Qurgen Tonunsun dəvət edilməsi hansı zərurətdən yaranmışdı, bilmirəm, amma aktyorun oynadığı rolun öhdəsindən bacarıqla gəldiyini danmaq olmaz.

Filmdə Tərlanın anasını tanınmış gürcü aktrisası Ancaparidze oynayır. Bu aktrisayla bağlı bir əhvalat yadıma düşdü. Səksən beşinci il idi. Moskva Beynəlxalq Kinofestivalında həmyerlimiz, tanınmış kinorejissor Əjdər İbrahimovla teztez rastlaşırdım, həmişə də söhbətimiz kinodan düşürdü. Əllinci illər Azərbaycan kinosundan danışanda “Onu bağışlamaq olarmı?” filmini də xatırladıq. Əjdər müəllim zarafatla dedi ki, Georgi Daneliyadan maqarıç düşür, ona görə ki, qohumunu filmə çəkmişik, Veriko Ancaparidze Georginin doğmaca xalasıdır…

Sevda roluna isə osetin qızı Manana Abuyeva dəvət edilmişdi. Bir aktrisa kimi onun sonrakı taleyi, yaradıcılığı ilə maraqlansam da, barəsində geniş məlumat əldə edə bilmədim. Öyrəndiyim bu oldu ki, Mananının kino yaradıcılığı cəmi üç filmlə məhdudlaşır: “Onu bağışlamaq olarmı?”, “Səhər” və İrəvan kinostudiyasının ekranlaşdırdığı “Dan yeri sökülənədək” filmləri. “Onu bağışlamaq olarmı?”da Manana Abuyevanı Əminə Yusifqızı səsləndirir. Bu, Əminənin kinoda ilk işi olsa da, gənc aktrisa bəstəkar Sevdanın taleyini, onun ürək çırpıntılarını, hisslərini ustalıqla dilə gətirir.

“Onu bağışlamaq olarmı?” öz dövrü üçün səciyyəvi qüsurlardan xali olmasa da, böyük tamaşaçı marağını, tamaşaçı rəğbətini qazana bilmişdi. Filmə bu günün gözüylə baxanda nəzərə çarpan bəzi qüsurlar isə bu ekran əsərinin bədii məziyyətlərinə xələl gətirmir və ona olan marağı azaltmır. Film bu gün də baxılır. Baxılırsa, deməli, yaşayır. Bir məsələni də unutmamalıyıq ki, “Onu bağışlamaq olarmı?” Azərbaycan kinematoqrafçılarının detektiv janrda çəkdiyi ilk filmlərdəndir və o vədə bu sahədə təcrübə yox idi. Bu janr yalnız Azərbaycanda deyil, ümumilikdə sovet kinosunda böyük marağa səbəb olmuş və sonrakı illərdə də ekranda geniş əksini tapmışdı.

Filmin sonluğu da maraqlıdır. Rejissor şablon ənənəçilikdən qaçaraq uğurlu bir forma seçib – final akkordunu nöqtə ilə deyil, sual işarəsi ilə vurub. “Onu bağışlamaq olarmı?” – caninin anasının dilindən səslənən bu sual filmin personajlarından daha çox, tamaşaçılara ünvanlanıb. Ana cinayət işlətmiş oğlunu onların mühakiməsinə verir. Sonda hökmü tamaşaçı özü çıxarmalıdır.

Bu kinonun ekranlara çıxdığı vaxtdan yarım əsrdən çox ötüb. Filmdə qoyulan sual isə bu gün də aktualdır – “Onu bağışlamaq olarmı?..”